# Gəncədə Vətən müharibəsi zamanı həlak olmuş mülki şəxslərin xatirəsi anılıb

Gəncə şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən növbəti dəfə raket atəşinə tutulmasından bir il ötür. Bununla əlaqədar Gəncədə anım mərasimi keçirilib.





Anım mərasimində Milli Məclisin I vitse-spikeri Əli Hüseynli, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, millət vəkilləri, Türkiyə və Gürcüstanın Gəncədəki baş konsulları, hüquq-mühafizə orqanlarının rəhbərləri, müsəlman, xristian və yəhudi dini icmalarının, habelə şəhər ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Mərasim iştirakçıları əvvəlcə Vətən müharibəsi dövründə Gəncənin Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə tutulması nəticəsində dağılan ərazilərə baş çəkmiş, terror qurbanlarının xatirəsini ehtiramla yad etmişlər.

Mərasimdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov məlumat verərək demişdir ki, 2020-ci ilin oktyabrın 17-də gecə saat 2 radələrində düşmənin növbəti dəfə Gəncəni "SCUD/Elbrus" əməliyyat-taktiki ballistik raketləri ilə atəşə tutması nəticəsində 15 nəfər şəhid olmuş, 50-dən artıq şəxs yaralanmış, mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəymişdir. Şəhid olanlar və xəsarət alanlar arasında azyaşlılar, qadınlar və qocalar da olmuşdur. O da diqqətə çatdırılmışdır ki, Ermənistan silahlı qüvvələri tərəfindən Gəncə şəhəri ümumilikdə 5 dəfə (4, 5, 8, 11 və 17 oktyabr tarixlərində) raket atəşinə məruz qalmışdır. Nəticədə 26 nəfər şəhid olmuş, 130-dan artıq şəxs yaralanmışdır.

Milli Məclisin I vitse-spikeri Əli Hüseynli qeyd etmişdir ki, Vətən müharibəsinin başladığı ilk günlərdən Ermənistan qadağan olunmuş silahlardan istifadə edərək döyüş bölgəsindən uzaqda yerləşən yaşayış məntəqələrini, mülki obyektləri, xüsusilə də Gəncəni raket atəşinə tutmuşdur. "Bütün bu qanlı hadisələrə, terror aktlarına baxmayaraq, Azərbaycan xalqının iradəsi sınmadı. Azərbaycan Ordusu isə həm gəncəlilərin, həm də həlak olmuş digər mülki şəxslərin qisasını Ermənistan ordusuna sarsıdıcı zərbələr vurmaqla aldı".

Qeyd edək ki, Ermənistan silahlı qüvvələrinin Gəncədə törətdikləri terror nəticəsində dağılan ərazilər gün ərzində şəhər ictimaiyyətinin nümayəndələri və sakinlər tərəfindən ziyarət olunmuşdur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2021.- 19 oktyabr.- S.10.